Epizootoloji monitorinqlərin keçirilməsinə dair məlumat

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən ölkəmizin donuzların Afrika taunu xəstəliyindən azad statusunun qorunub saxlanılması, eləcə də digər xəstəliklər üzrə epizootoloji vəziyyətin qiymətləndirilməsi məqsədilə mütəmadi monitorinqlər aparılır və nəticələr barədə Ümumdünya Heyvan Sağlamlığı Təşkilatına hesabatlar təqdim edilir.

Bu tədbirlər çərçivəsində avqustun 10–14-də respublikanın bir sıra şəhər və rayonlarında yerləşən təsərrüfatlarda epizootoloji monitorinqlər keçiriləcək. Monitorinqlər təsadüfi seçmə üsulu ilə müəyyən edilmiş ərazilərdə, fərdi və fermer təsərrüfatlarında aparılacaq.

Monitorinqlər zamanı ərazilərdə müşahidələr aparılacaq, laborator müayinələr üçün diaqnostik nümunələr götürüləcək, həmçinin baytarlıq norma və qaydalarına əməl olunmasının vacibliyi ilə bağlı maarifləndirmə tədbirləri həyata keçiriləcək.

Monitorinqlərdə AQTA-nın, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun, Aqrar Xidmətlər Agentliyinin Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzinin və yerli idarələrinin əməkdaşları iştirak edəcəklər.